# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli 320 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə**

“Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli 320 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (bundan sonra - Mərkəz):

1.1. “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”da (bundan sonra - Milli Strategiya) nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini təmin etmək məqsədilə mövcud rəqəmsal resurslar əsasında “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”nın icrasının monitorinqi və hesabatlılıq modulu”nun (bundan sonra - Modul) formalaşdırılmasını 6 (altı) ay müddətində təmin etsin və növbəti ildən Milli Strategiyanın monitorinq və qiymətləndirilməsini Modul üzərindən həyata keçirsin;

1.2. Modulda “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiyanın (bundan sonra – Komissiya) təqdimatı əsasında Milli Strategiyada qeyd olunmuş tədbirlərlə bağlı icraçı orqanlar (qurumlar), iqtisadi rayonlar, şəhər və rayonlar, habelə obyektlər üzrə icra müddətlərini (illər üzrə bölgüsü), layihələrlə bağlı (ərazi planlaşdırma, tikintiyə icazə sənədi, texniki-iqtisadi əsaslandırma, tikinti layihəsi, şəhərsalma planına uyğunluq rəyi, smeta sənədləri, layihə konsepsiyası, ekspertiza rəyi, ətraf mühitə təsirlə bağlı dövlət ekoloji ekspertizasının rəyi, maliyyə vəsaitinin ayrılması, satınalma və müqavilələrin bağlanması və s.) məlumatları və digər zəruri göstəriciləri təsnifatlandırmaqla, mövcud vəziyyət barədə informasiyaları, aidiyyəti foto və videomaterialları, habelə iri layihələrə münasibətdə birbaşa (onlayn) kamera müşahidəsini təmin edən sistemdə hesabatlılığa imkan verən müvafiq bölmələrin yaradılmasını təmin etsin;

1.3. Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqinin nəticəsi barədə məlumatları rübdə bir dəfə, növbəti ayın 25-dək Komissiyaya təqdim etsin;

1.4. Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqinin nəticəsi barədə məlumatları ildə bir dəfə, hər il mart ayının 25-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.5. Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının qiymətləndirilməsinin nəticəsi barədə məlumatları 2028-ci il iyun ayının 25-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.6. Modulun yaradılması və Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqinin və qiymətləndirilməsinin aparılması xərclərini Mərkəzin növbəti illər üçün büdcəsində nəzərə alsın.

2. Milli Strategiyada nəzərdə tutulmuş tədbirlər üzrə əsas icraçı orqanlar (qurumlar):

2.1. Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin aidiyyəti üzrə icrası məqsədilə rəhbərlərin müavinlərindən ibarət məsul şəxsləri təyin edərək onlar barədə məlumatı 10 (on) gün müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

2.2. Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin nəticə indikatorları üzrə hədəf göstəriciləri də müəyyən edilməklə illər üzrə bölgüsünü 1 (bir) ay müddətində Mərkəzlə razılaşdırılmış indikatorlar cədvəlinin nümunəvi formasına uyğun hazırlayaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

2.3. monitorinq və qiymətləndirmənin həyata keçirilməsi məqsədilə Mərkəzə təqdim edilməsi üçün Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı müvafiq məlumatların rübdə bir dəfə növbəti ayın 15-dək, ilin yekunları barədə məlumatların isə hər il yanvar ayının 25-dək Modulda yerləşdirilməsini təmin etsinlər.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Milli Strategiyada nəzərdə tutulmuş tədbirlər üzrə layihələrin maliyyələşdirilməsi dövlət büdcəsində nəzərdə tutulduğu təqdirdə, onların ilkin ümumi dəyəri, dövlət büdcəsindən ayrılmış və istifadə olunmuş vəsait barədə məlumatların hər növbəti ayın 5-nə qədər Modulda yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi çərçivəsində istifadə olunması üçün “Elektron su təsərrüfatı” informasiya sisteminin Modula inteqrasiyasını təmin etsin.

5. Bu Sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Regionların inkişafı şöbəsinə həvalə edilsin.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 24 ” “ oktyabr ” 2024-cü il

№ 544s